# ELM VƏ TƏHSİLİN HİMAYƏDARI- HEYDƏR ƏLİYEV

***Nuranə Şahin qızı Çələbiyeva***

*AMEA Əlyazmalar İnstitutu,*
*Ərəbdilli əlyazmaların tədqiqi şöbəsi, tərcüməçi*
*Səbail rayonu, İstiqlaliyyət küç.26*
*Nuranə-815@mail.ru*

***Açar sözlər:*** *kitab, yazı, vətənpərvər, sağlam düşüncə*
***Ключевые слова:*** *книга, письмо, патриот, здравый смысл*
***Keywords:*** *book, writing, patriot, common sense*

**Xülasə:** Kitabın yaranmasında əlifba və yazının meydana gəlməsi ilkin amillərdən hesab olunur. Əlifbadan və yazıdan istifadə etməyə başlayan insanların ilk kitabları ağac, daş, gil lövhələr və s. olub. Eramızdan əvvəl IV–III minilliklərdə qədim misirlilər “papirus” adlı yazı materiallarından isifadə etmişdir.

751-ci ildə Səmərqənddə kağız istehsalına başlanılır. Məhz bu fakta görə kağızın vətəni Şərq sayılır. Kağızın meydana gəlməsi əlyazma kitabların yaranmasına və geniş yayılmasına böyük təsir göstərdi.

Kitab insanın ən yaxın dostudur, ezizidir. Çox vaxt heç kimdən ala bilmədiyin məlumatları, sənə həyatda var olmaq üçün , düzgün yaşamaq və insanlarla münasibət qurmaq üçün lazım olan informasiyaları kitab verir. Hər bir insanın özünü dərk etdiyi gündən ilk dostu onun birinci kitabıdır. Kitabları oxuduqca insan oradakı ideala doğru addımlayır, özünü təkmilləşdirir, mənfi xasiyyətlərini unutmağa və pis vərdişlərdən əl çəkməyə çalışır.

**Резюме:** Появление алфавита и письменности считается одним из основных факторов создания книги. Первые книги людей, начавших использовать алфавит и письмо, изготавливались из дерева, камня, глиняных табличек и т. д. В IV–III тысячелетиях до н. э. древние египтяне использовали писчий материал под названием «папирус».

Производство бумаги началось в Самарканде в 751 году. Именно поэтому Восток считается родиной бумаги. Появление бумаги оказало большое влияние на создание и широкое распространение рукописных книг.

Книга — самый близкий и дорогой друг человека. Часто книги дают вам информацию, которую вы не сможете получить ни от кого другого, информацию, необходимую для выживания, правильной жизни и построения отношений с людьми. Первым другом каждого человека с того дня, как он осознал себя, является его первая книга. Читая книги, люди движутся к идеалам, которые в них находят, совершенствуются, стараются забыть свои отрицательные черты и отказаться от вредных привычек.

**Summary:** The emergence of the alphabet and writing is considered one of the primary factors in the creation of the book. The first books of people who began to use the alphabet and writing were made of wood, stone, clay tablets, etc. In the 4th–3rd millennium BC, the ancient Egyptians used a writing material called "papyrus".

In 751, paper production began in Samarkand. It is precisely because of this fact that the homeland of paper is considered to be the East. The emergence of paper had a great influence on the creation and widespread distribution of handwritten books.

A book is a person's closest friend, dearest. Often, a book gives you information that you cannot get from anyone else, information that you need to exist in life, live properly and build relationships with people. The first friend of every person from the day he realizes himself is his first book. As he

reads books, a person steps towards the ideal there, improves himself, tries to forget his negative traits and give up bad habits.

**Allahın Peyğəmbəri (s):** *"Mömin özündən bircə vərəq belə elm yazılmış yazı qoyub gedərsə, qiyamət günündə həmin vərəq onunla od arasında pərdəyə çevrilər. Allah-taala onda yazılmış hər hərfin müqabilində dünyadan yeddi dəfə böyük olan bir şəhər verər."*

Savadlı, elmli gənc mütəxəssislərin hazırlanması məhz orta məktəbdən başlayır. Dövlətimiz bu məsələyə də xüsusi diqqətlə yanaşır. Azərbaycanda büdcənin ən böyük hissəsi təhsil xərclərinə yönəldilmişdir. Son illər həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev Fondunun hesabına yüzlərlə məktəb tikilib. Məktəb tikintisi bu gün də sürətlə davam etdirilir. Azərbaycanda bütövlükdə təhsil infrastrukturu yenilənir. Böyük əhəmiyyət kəsb edən kompüterləşmə proqramı həyata keçirilir. Hər bir məktəbdə kompüter sinifi yaradılır və internetə çıxış təmin olunur. Nəticədə gənclərimiz, şagirdlərimiz, tələbələrimiz dünyada baş verən bütün hadisələri yaxından izləyir, yeni müasir informasiya texnologiyalarına yiyələnirlər. Onlar dünyada gedən prosesləri təhlil etmək üçün imkanlar əldə edirlər. Bu gün Azərbaycan gəncləri xarici ölkələrə təhsil almağa, biznes qurmağa, təcrübə qazanmağa, işləməyə və s. faydalı işlər görməyə gedir. Xaricdə çalışan gənclərimizin böyük hissəsi bir neçə ildən sonra vətənə dönərək əldə etdikləri təcrübəni, işgüzarlığı və iqtisadi sistemin xüsusiyyətlərini ölkəmizdə tətbiq edirlər [2].

Elmin, texnikanın, təhsilin, mədəniyyətin inkişafı hər zaman Ulu öndər Heydər Əliyevin diqqət və qayğı mərkəzində olmuşdur. Heydər Əliyev gənclərə, onların gələcəyinə böyük inam bəsləyirdi.

**Ulu öndər deyirdi:** *"Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli, vətənpərvər, millətini sevən gənclikdir...".*

Azərbaycanı inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi. Bu dahi insan düşüncələri zəngin olduğu qədər də tükənməz enerjiyə malik idi. Heydər Əliyevi minlərdən, milyonlardan fərqləndirən üstün cəhət bu idi ki, o, məmləkətin inkişafı üçün zəruri olan məqamları görə bilirdi, qarşıya konkret məqsədlər qoyurdu və insanları bu məqsədlər naminə səfərbər edirdi, qüvvələri səmərəli şəkildə istiqamətləndirirdi.

Ulu öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı ilə yanaşırdı. Bu da təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir [1].

Məhz buna görə də Ümummilli liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi bazasının gücləndirilməsi əhalinin gün-güzəranının yaxşılaşdırılması, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərliyi dövrü Azərbaycanın tarixinə elmin və təhsilin, mədəniyyətin tərəqqi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, kino-teatr, klub, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Mədəniyyətin bütün sahələrində görünməmiş uğurlar qazanıldı. Bu qayğı sayəsində neçə-neçə görkəmli bəstəkar, rəssam, şair, yazıçı, heykəltəraş yetişdi. Onlara fəxri adlar verilməsi, Bakıda və Moskvada yubileylərinin keçirilməsi ənənə halını aldı.

Heydər Əliyev dühasının böyüklüyü də məhz ondadır ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intelektual və elitar təbəqənin formalaşmasına çalışmışdır [6].

Elmi tədqiqat işlərinin zamanın tələblərinə uyğun davam etdirilməsi üçün, Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA) xüsusi diqqət yetirilirdi. Təsadüfi deyil ki, Heydər Əliyevin elm siyasətində əsas yeri AMEA tuturdu. Bu qurum Azərbaycan dövlətçiliyi üçün strateji əhəmiyyət kəsb edir. Kifayət qədər peşəkar elmi kadrlara, elmin bütün sahələri üzrə fundamental tədqiqat aparmaq potensialı və təcrübəsinə, dinamik fəaliyyət mexanizminə və yaxşı təşkil edilmiş institutlaşmaya malik AMEA-nı inkişaf etdirmək tarixi zərurətdir [1].

Ulu öndərin AMEA-nın Azərbaycan elmində tutduğu yerə verdiyi qiymətdə onun elm siyasətinin iki aspektinin vəhdəti ifadə olunub. Birinci aspekt elmi fəaliyyətin ölkə və dövlətçilik üçün xüsusi əhəmiyyət daşıması ilə bağlıdır. Kreativ düşüncəli, yaradıcı insanların işləməsi üçün lazımi şərait yaradılmalı idi. Artıq formalaşmış struktur-funksional keyfiyyətlərə malik AMEA bunun üçün ideal modeldir. İkinci aspekt Azərbaycanda elmi fəaliyyətin institutlaşması ənənəsini saxlamaqla, yeni təşkilatlanma və strukturlaşma modelləri axtarışlarını koordinasiyalı aparmaq zərurəti ilə əlaqəli idi. Yalnız AMEA bu cür geniş miqyaslı və çoxhədəfli prosesin nüvəsi rolunu oynaya bilərdi. Bu elm məbədinin tarixi və hazırda malik olduğu mənəvi, intelektual, funksional, maddi-texniki və idarəetmə təcrübəsi belə qənaətə gəlməyə tam əsas verirdi [6].

Zaman Heydər Əliyevin AMEA-nı Azərbaycan elminin məhək daşı kimi görməkdə nə dərəcədə haqlı olduğunu sübut etməkdədir. Ümummilli lider Heydər Əliyev ictimaiyyət nümayəndələri ilə ilk görüşünü Elmlər Akademiyasında keçirməklə, ölkə ziyalılarına, intelektual potensiala çox böyük dəyər verdiyini, etimad etdiyini, onlara arxalandığını bir daha göstərmişdi. 1997-ci il yanvarın 31-də Heydər Əliyev Elmlər Akademiyasının rəhbərliyini və aparıcı alimlərin bir qrupunu qəbul edərək elm sahəsində islahatların aparılmasının vacibliyini qeyd etmiş, Azərbaycanın inkişaf strategiyasının əsas müddəalarını və Elmlər Akademiyasının bundan irəli gələn vəzifələrini müəyyənləşdirmişdir:

*"İndi Azərbaycan müstəqil bir dövlətdir. Azərbaycan Elmlər Akademiyası dövlət Elmlər Akademiyasıdır. Bizim akademiyamızın gərək strategiyası olsun, akademiya gərək öz işini bu strategiya əsasında qursun".* Azərbaycan Prezidenti cənab İlham Əliyev AMEA-nın 60 illik yubileyində etdiyi çıxışında məhz bu məqamı xatırlayaraq Ümummilli liderimizin bu müdrik addımına belə aydınlıq gətirmişdir: "O görüş rəmzi xarakter daşıyırdı. Çünki, Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir". Ulu öndər Heydər Əliyevin 15 may 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" adı verilmişdir [3].

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında" 2010-cu il 9 fevral tarixli Sərəncamı isə respublikada elmi tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını, ölkənin elmi kadr potensialının artırılmasını və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını daha da sürətləndirmək məqsədi daşıyırdı. Elmin, texnikanın, təhsilin, mədəniyyətin inkişafı hər zaman Ulu öndər Heydər Əliyevin diqqət və qayğı mərkəzində olmuşdur [3].

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Milli Elmlər Akademiyası bağlanmaq təhlükəsi ilə üzləşəndə Ümummilli lider Heydər Əliyev görkəmli alimlərimiz və ziyalılarımızla görüşmüş, onlarla fikir mübadiləsi aparmış, AMEA-nın dirçəlməsi və inkişafı üçün əməli addımlar atmış, AMEA-ya milli sərvətimiz kimi dəyər vermişdir. Dahi Heydər Əliyevin elmə qayğısının nəticəsidir ki, bu gün Azərbaycan alimlərinin səsi dünyanın nüfuzlu elm mərkəzlərindən gəlir və alimlərimiz öz elmi əsərlərini mötəbər elmi nəşrlərdə dərc etdirirlər [4].

*"Azərbaycan Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq".*

*"Müstəqil Azərbaycanın Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək, xalqımızın yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir".*

*"Azərbaycan Elmlər Akademiyasının keçdiyi şərəfli yol Azərbaycan xalqının tarixində böyük bir səhifədir".*

***Ümummilli lider Heydər Əliyev***

Ulu öndər həmişə fəxr və qürur hissi ilə qeyd etmişdir: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"

Ulu öndər xalqı üçün yaşayıb-yaratdı, bütün ömrünü xalqına həsr etdi. Heydər Əliyev nadir insanlardan idi ki, hamının qəlbinə yol tapmağı bacarırdı. Yaddaşlarda iz qoyurdu. Bu dahi şəxsiyyət ensiklopedik biliyə sahib idi. Güclü, heyrətamiz yaddaşa malik idi ki, bu xüsusiyyət də, əsl rəhbərə xas özəllik idi [5].

Millətimiz, Azərbaycanımız yaşadıqca Heydər Əliyev də qəlbimizdə daima yaşayacaq!

**Ədəbiyyat**

1. Heydər Əliyev – 90. - "Azərbaycan və azərbaycanlılar" jurnalı. No.1-4, 2013.
2. Ümummilli lider Heydər Əliyev – dövlətə və xalqa xidmətin ali meyarını yaratmış tarixi şəxsiyyət. - Azərbaycan qəzeti. – 2023. - 10 may. - s.6-7.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verilməsi haqqında" 15 may 2001-ci il tarixli Fərmanı.
4. *Məlikli Günel*. Azərbaycan Milli Elmlər Akademiyasının şərəfli tarix yolu, elmi red.: akad. İsa Həbibbəyli, Bakı: Elm, 2020. 231 s.
5. Heydər Əliyev // https://az.wikipedia.org/wiki/Heyd%C9%99r_%C6%8Fliyev
6. Dahiliyin Heydər Əliyev zirvəsi // http://anl.az/down/meqale/azerbaycan/2013/may/309444.html.